# Heydər Əliyev – 100



> ***Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram.***
>
> ***Heydər ƏLİYEV***
> ***Ümummilli lider***

# Ümummilli liderin həmişəyaşar qalibiyyət strategiyası

**Tarixin Azərbaycan xalqına bəxş etdiyi ən böyük şəxsiyyət– dünya şöhrətli siyasət və dövlət xadimi, fenomen rəhbər, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsi ötən illərdə xalqımızın qəlbində əbədiləşmiş, ideya və əməlləri isə ölkəmizi işıqlı gələcəyə aparır.**

Ulu öndərin qarşıdan gələn 100 illik yubileyini ölkəmizdə onun nadir şəxsiyyətinə, xalqımıza misilsiz xidmətlərinə layiq şəkildə keçirmək üçün Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Dövlət başçısının şanlı yubileylə bağlı 28 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planında isə ölkəmizdə və xaricdə müxtəlif formatlı silsilə tədbirlərin təşkili ilə yanaşı, "Heydər Əliyev–100" yubiley medalının təsis edilməsi, poçt markalarının, xatirə nişanlarının və qızıl sikkələrin buraxılması, Heydər Əliyev Mükafatının təqdimatı, məktəblərdə "Heydər Əliyev dərsləri"nin keçilməsi və tələbələr üçün "Heydər Əliyev təqaüdü"nün verilməsi də nəzərdə tutulur.

Bu sərəncamlar qədirbilən xalqımızın ulu öndərə sonsuz məhəbbətinin, qurub-yaratdığı müstəqil Azərbaycan dövlətinin ümummilli liderin xatirəsinə sonsuz ehtiramının ifadəsi olaraq hər bir azərbaycanlının qəlbində hədsiz məmnunluq duyğuları yaratmışdır. Artıq indidən böyük rəhbərin keçdiyi şərəfli ömür yolu öyünclə nəzərdən keçirilir, ümumxalq təntənələrinə müxtəlif səviyyələrdə ciddi və əhatəli hazırlıq aparılır. Ulu öndərin nadir irsinin tədqiqatçıları olan alimlərimiz də xalqımızın böyük oğlunun titanik fəaliyyəti ilə bağlı araşdırmaların yeni mərhələsinə start vermişlər.

Müstəqil dövlətimizin banisi Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu qəti olaraq sübut etmişdir. Azərbaycanın müstəqilliyini təmin etməklə, suveren dövlətin əsaslarını yaratmaqla ulu öndər xalqımızın mötəbər və təminatlı gələcəyinə böyük yol açmışdır. Azərbaycan yarım əsrdən artıqdır ki, sevimli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlik və maneələri inamla dəf edir, tarixə yazılan böyük nailiyyətlər əldə edir. Dünyanın tərəqqipərvər insanları və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiramla yanaşırlar.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Onun 35 illik rəhbərliyi dövründə respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir. Ulu öndər öz ölkəsinə rəhbərlik etdiyi hər iki dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Heydər Əliyev bütün Türk dünyasının da sevimlisi, türkdilli xalqların fəxr etdiyi nadir tarixi simadır.

Azərbaycan müstəqilliyin ilk addımında naşı siyasi qüvvələrin məsuliyyətsizliyi və xəyanətkarlığı səbəbindən məhv olmaq təhlükəsi ilə üzləşəndə ümummilli lider öz xaqının harayına yetişərək onun xilaskarına çevrildi. 1993-cü ilin böhranlı yayında – Vətənin dar günündə – ölkənin ictimai-siyasi həyatında baş verən çaxnaşma, hakimiyyət uğrunda gedən mübarizə, cəbhədəki acınacaqlı məğlubiyyətlər, vətəndaş qarşıdurması zamanı xalqımız öz böyük oğlunu hakimiyyətə dəvət etdi. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan parlamentinin sədri seçildi. Qədirbilən xalqımız həmin günü haqlı olaraq hər il Milli Qurtuluş Günü kimi qeyd edir.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində siyasi böhran dayandırıldı. Milli Ordunun döyüş qüdrətinin artması nəticəsində torpaqlarımızın işğal edilməsinə son qoyuldu, atəşkəs elan olundu. Qısa bir zamanda Heydər Əliyevin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik, iqtisadi dirçəliş əldə olundu, siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı.

Sonrakı dövrdə mahir dövlət qurucusu Heydər Əliyevin rəhbərliyi ilə müstəqil respublikamızın ilk Konstitusiyası qəbul edildi, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq ölüm hökmü ləğv edildi, hüquqi və sivil dövlət quruculuğu prosesi uğurla davam etdirildi. İqtisadi islahatların həyata keçirilməsinə başlanıldı. "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi imzalandı, dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişləndi. Bütün bunlar məhz ulu öndərin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün oldu.

Ümummilli liderimiz Heydər Əliyev tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə, dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi. Bu gün biz fəxrlə deyirik ki, Azərbaycanı dünya dövlətləri arasında irəli çıxaran, xalqı məhv olmaqdan xilas edən, onun gələcək inkişafına möhkəm zəmin yaradan ulu öndər Heydər Əliyev oldu.

Dünya miqyaslı dövlət xadimi Heydər Əliyev keçmiş SSRİ məkanında hamının öyrənmək istədiyi siyasətçi idi. MDB dövlət başçılarının sammitlərində çıxış edən Azərbaycan liderinin hər bir təklifi böyük maraq və ehtiramla qarşılanırdı. O, dünya siyasətçiləri arasında da uzaqgörən şəxsiyyət kimi həmişə çox nüfuzlu və hörmətli idi. Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi Böyük İpək Yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirərək bütün dövlətlərin inkişafına mühüm təkan vermişdir.

Müstəqil Azərbaycan dövlətinin Prezienti kimi Heydər Əliyev BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GÜAM, MDB və başqa beynəlxalq təşkilatların toplantılarında daim qlobal bəşəri problemlərə öz orijinal baxışı ilə fərqlənirdi. Çünki ulu öndərin, sözün həqiqi mənasında, amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etməkdən ibarət idi.

Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin praqmatizmə söykənən səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter almışdır. Ölkə başçının rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır.

Son 19 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda iqtisadi quruculuq prosesi sürətləndi. Ölkəmiz regionun ən güclü dövlətinə çevrildi. Bunun nəticəsi olaraq insanların maddi rifahı və həyat səviyyəsi xeyli yaxşılaşdı. Möhtərəm dövlət başçısı ulu öndərin müəyyən etdiyi dövlətçilik kursuna uyğun olaraq ölkənin sosial-iqtisadi cəhətdən inkişafını təmin etdi. Azərbaycanın regionda lider dövləti kimi bölgədəki yeni reallıqların əsas müəllifi, iqtisadi-siyasi proseslərin başlıca iştirakçısı oldu.

Prezident İlham Əliyevin rəbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial şanlı Ordumuzun düşmən üzərində parlaq və qəti qələbəsini şərtləndirdi. 2020-ci il ölkəmizin dövlətçilik və müstəqillik tarixinin ən şərəfli səhifələrindən birini təşkil edir. Ali Baş Komandan ulu öndər Heydər Əliyevin Ata vəsiyyətini şərəflə yerinə yetirdi.

Artıq Qarabağa böyük qayıdış başlayıb. Quruculuq işləri uğurla davam etdirilir. Möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vaxtaşırı tikinti meydançalarında olurlar. Bütün bunlar xalqımızda qürur hissi yaradır.

Bu gün xarici və daxili siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcək.

Bütün bunlar isə bizə onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycan ulu öndər Heydər Əliyevin yaratdığı tarixi əsaslar üzərində dünyanın qüdrətli və sürətlə inkişaf edən dövlətlərindən birinə çevriləcəkdir.

**Arif ŞƏKƏRƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin professoru,**
**Əməkdar elm xadimi**